інформації для оцінки і контролю діяльності підприємства, постійного її регулювання та вдосконалення через прийняття відповідних управлінських рішень.

**Література:**


1. Галіцин В.К., Суслов О.П., Самченко Н.К. Системи моніторингу: навчальний посібник. К.: КНЕУ, 2015. 408 с.
2. Слинков А.М. Мониторинг как управленческий процесс: принципы, методы, функции. *Теоретические модели успешные практики управления. Научные ведомости. Серия Экономика. Информатика*. 2016. №2 (223). Выпуск 37. С. 63-70.
3. Молодоженя М.С. Моніторинг результативності інноваційної діяльності у торгівлі для потреб економічного управління підприємством. *Науковий вісник Херсонського державного університету. Серія: Економічні науки*. 2014. Випуск 9-1. Частина 2. С. 84-87.
4. Мельник О.Г., Пецкович М.Д. Моніторинг діяльності підприємства. *Вісник Національного університету «Львівської політехніки». Серія: «Менеджмент та підприємництво в Україні: етапи становлення і проблеми розвитку»*. Львів: Видавництво Львівської політехніки. 2012. № 722. С. 381-386.


## QLOBALLAŞAN DÜNYADA INNOVATIV SAHIBKARLIĞIN FORMALAŞMASINA TƏSIR GÖSTƏRƏN AMILLƏR


*Əliyeva Təranə Əsman qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*


Bazar iqtisadiyyatlı ölkələrdə sahibkarlıq fəaliyyəti iqtisadi inkişafın əsas, aparıcı amilidir. Bu ondan irəli gəlir ki, bir çox iş yerlərinin yaradılması və yeni məşğulluq imkanlarının ortaya çıxması təşəbbüskarlıq fəaliyyətinin nəticəsi hesab olunur. Təşkilati struktur və sistemlər, bir təşəbbüsün böyümə potensialı və bu səbəbdən sahibkarlığın artım tendesiyası yeni bazar subyektlərinin ortaya çıxmasına təsir edən amillərdir. Bu baxımdan, bir çox ölkələrdə iqtisadi təsir baxımından potensialı yüksək sahibkarlıq fəaliyyətlərini dəstəkləyən tənzimləyici proqramlar həyata keçirilir. Təhsil və siyasi mühit də fərdi xüsusiyyətlərlə yanaşı sahibkarlıq fəaliyyətinin inkişafında özünəməxsus yer tutur. Təhsil sistemı və təhsilin keyfiyyəti yeni sahibkarlarlıq qabiliyyətlərinin və münasibətlərinin ortaya çıxmasında, sahibkarlıq fəaliyyətinin inkişafında əhəmiyyətli təsir göstərir. Çünki, keyfiyyətli təhsil nəticəsində əldə olunan özünə inam, fürsət hissi, təcrübə kimi fərdi amillər bir təşəbbüskarın innovativ sahibkarlıq fəaliyyəti ilə məşğul olma ehtimalını əhəmiyyətli dərəcədə artırır. Ümumiyyətlə, sahibkarlığı dəstəkləyən bir mədəniyyətin mövcudluğu şəraitində insanların innovativ sahibkarlığa başlama ehtimalı da yüksəlir.

Məlumdur ki, cəmiyyətin iqtisadi baxımdan güclü olması onun rəqabət gücünə bağlıdır, rəqabət gücünü artıran ən ğnəmli vasitə isə innovasiyadır. Çünki innovasiya

məhsuldarlığı artırır. Bu səbəbdən də innovasiya iqtisadi inkişafın açarı hesab olunur. İnnovasiya yeni ideyalarla elm və texnikanı inkişaf etdirib istehsal sahələrinə tətbiq etmək, iqtisadi vəziyyəti inkişaf etdirmək deməkdir. İnnovasiya elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmasına, yeni texnologiyaların tətbiqinə, yeni yaradılan məhsulun keyfiyyət göstəricilərinin yüksəldilməsinə və nəticədə iqtisadi artımın əldə olunmasına yönəldilir. Deməli, inkişaf texnoloji tərəqqi ilə birbaşa əlaqədardır.

İnnovasiya ilə sahibkarlıq bir-birini tamamlayır. Daha doğrusu, innovasiya sahibkarlığın əsas mənbəyidir, sahibkarliq isə innovasiya fəaliyyətinin inkişafını təmin edir. İş sahəsini genişləndirmək məqsədilə sahibkar innovasiyadan istifadə edir. Bu baxımdan demək olar ki, innovasiya və sahibkarlıq yeni təşəbbüslərin ilk mərhələsi ilə məhdudlaşmayan dinamik proseslərdir. Sahibkar daima innovativ imkanları axtarmalı və müəyyənləşdirməli, yeni ideyaların kommersiya cəhətdən innovasiyalara reallaşdırılmasına can atmalıdır.

Sahibkar rentabelliyi təmin etmək üçün əlavə dəyərlərə malik innovasiyaların tətbiqinə əsaslanmalıdır. Bu baxımdan, innovasiya sahibkarlığı əhəmiyyətli dərəcədə əlavə dəyərə malik olan yeniliklərin, tətbiqyönümlü elmi araşdırmalara dəstəklənərək, investisiya imkanları ilə inkişaf etdirilən yeni sahibkarlıq forması hesab edilir. İstər sahibkarlıqda innovasiya, istərsə də innovasiya sahibkarlığında yanaşmalar yeni və daha üstün dəyərlərin meydana çıxarılması və tətbiqinə əsaslanır. İnnovasiya sahibkarlığında yenilikçi yanaşmalar həm fəaliyyət sferasında, həm də bütövlükdə cəmiyyətdə intelektual dinamikanı artırır, müsbət istiqamətdə dəyişdirir.

İnnovativ sahibkalığın formalaşmasına təsir edən amillərə sahibkar davranışı, risk mövqeyi və uğursuzluq qorxusu, işə sadiqlik, liderlik və idarəetmə davranışı, qərar vermə bacarığı, xarici mühitlə maraqlanma, yaradıcılıq, intelektual kapital, və s. misal göstərmək olar. Bundan əlavə, bazar şəraiti, aparılan iqtiadi siyasət və institutsional mühit də innovativ davranışın inkişafın təsir edən vacıb amillər hesab olunurlar. Bu baxımdan, təşkilati amillərin innovativ sahibkarlığa təsirini nəzərə almaq lazımdır.

Elmtutumlu texnologiya, keyfiyyətli məhsul istehsalını sürətləndirmək məqsədilə, innovasiya fəaliyyətinin genişləndirilməsi, elmi infrastrukturun təkmilləşdirilməsi, elmin maddi-texniki bazasının müasirləşdirilməsi, innovativ iqtisadiyyat üçün elm və istehsal arasındakı əlaqələri gücləndirən, innovasiya fəaliyyətinin həayata keçirilməsini şərtləndirən mexanizmlərin qurulması və tətbiqi əsas vəzifə kimi qarşıya qoyulur. Bu məqsədlə, innovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin inkişafı üçün əlverişli mühitin yaradılması, qabaqcıl texnologiya transferi və istifadəsi istiqamətində tədbirlər gücləndirilməlidir.

Qloballaşma firmaların daha çox informasiya əldə etməsinə və yeni bazarlara daxil olma imkanlarını sürətləndirmişdir. Daha sürətli informasiya axını və texnologiya sahəsində əldə edilmiş yeni nailiyyətlər iqtisadi inkişafın əsas təkanverici gücü hesab edilir. Qloballaşma dərinləşdikcə, dünya iqtisadiyyatı inkişaf etdikcə innovasiya prosesi də inkişaf edir və yeniliyin mühüm rol oynadığı işgüzar aləmdə daha çox qəbul edilməyə başlayır. Bu onunla əlaqədardır ki, innovasiya sahibkarlığında əhəmiyyətli məqam hesab edilən yenilikçi davranış innovasiyaların tətbiqinə əsaslanan təşəbbüskarın fikirləri ilə fürsətlərinin satışa çevirə bildiyi

prosesdir. Hər bir qarşıya çıxa biləcək innovasiya potensialı, istənilən sahə üzrə ortaya çıxan fürsətlər, eləcə də mövcud potensial imkanların səmərəliliyinin artırılması mükəmməl öyrənmə ilə yanaşı, təcrübəyə əsaslanan tədqiqat işlərini tələb edir.

Qloballaşan dünyada innovasiya texnologiyalarının, xüsusən də innovativ sahibkarlığın inkişafında xarici iqtisadi əlaqələrin mühüm rol oynadığını xüsusi vurğulamaq lazımdır. Çünki, məhz xarici-iqtisadi əlaqələr innovativ texnologiyaların mübadiləsinin intensiv xarakter almasına təsir göstərir. Bu onunla əlaqədardır ki, xarici iqtisadi fəaliyyətdə yeni nailiyyətlərin, elmi-texniki ideyaların xarici kapitalın mübadiləsinə üstülük verilir və innovativ biznesin inkişafına xüsusi diqqət yetirilir.

**Ədəbiyyat:**


1. A. Bayramov. Biznes və menecmentin əsasları. Bakı, 2011.
2. Biznesin təşkili və idarə edilməsi. Bakı, 2011.
3. İ. Qasımov, F. Cəbiyev. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı, 2017.


## SAHIBKARLIĞIN GENDER PROBLEMI


*Hüseynova E. Yə., İqtisad elmləri namizədi, dosent*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*


Azərbaycanda qadınların özəl sektorda bərabər iştirakını dəstəkləyən bir sıra əsas amillər mövcuddur. Milli qanunvericilik qadın və kişilərin iqtisadi resurslara bərabər çıxışını təmin etmək üçün güclü hüquqi təmələ malikdir. Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericilik bazası qadınlara mülkiyyətə yiyələnmək və bütün növ iqtisadi fəaliyyətlərlə məşğul olmaq üçün kişilərlə bərabər hüquqlar verir.

Qanunvericilikdə sahibkarlıq fəaliyyəti sahəsində qadınlar üçün hər hansı məhdudiyyət nəzərdə tutlmur, eyni zamanda qadınlara münasibətdə xüsusi güzəşt və imtiyazlar da müəyyənləşdirilmir. Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatından tutmuş, lisenziya və icazələrin verilməsi, vergi öhdəlikləri, yoxlamaların aparılması, pozulmuş hüquqların bərpası və s. kimi məsələlərdə heç bir cins fərqi və üstünlüyü müəyyənləşdirilmədən sahibkarlıq subyektləri öz hüquqlarını həyata keçirməkdə bərabər imkanlara malikdirlər.

Azərbaycan qadını üçün səciyyəvi olan təhsil nailiyyətlərinin və işçi qüvvəsində iştirakın yüksək səviyyəsi güclü potensiala malik qadın işçi qüvvəsi yaradır. Ölkədə özəl sektorun daha yaxşı inkişaf etməsi üçün qadın işçi qüvvəsinin tam potensialına nail olmaq Azərbaycanın milli inkişaf strategiyasının (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi) qarşısında duran əsas vəzifələrdən biridir. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə strateji hədəflərdən biri kimi qadın sahibkarlığının inkişaf etdirilməsi öz əksini tapmışdır.

Müasir iqtisadiyyatda qadın sahibkarlığı kiçik və orta sahibkarlığın (KOS)